**Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin**

**Regionların inkişafı şöbəsinin ƏSASNAMƏSİ**

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (bundan sonra - Nazirlik) aparatının struktur bölməsi olan Regionların inkişafı şöbəsi (bundan sonra - şöbə) bu Əsasnamə ilə verilən səlahiyyətlər çərçivəsində regionların, o cümlədən işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi inkişafına dair tədbirlərin işlənib hazırlanmasını, regionların sosial-iqtisadi inkişafına, eləcə də işğaldan azad edilmiş ərazilərin bərpası, yenidən qurulması və inkişafına dair tədbir və proqramların əlaqələndirilməsini, özəl layihələrin dəstəklənməsi və icrasına nəzarət sahələrində (bundan sonra – müvafiq sahə) işlərin təşkilini və tənzimlənməsini həyata keçirir.

1.2. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının “Dövlət qulluğu haqqında” Qanununu və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”ni, digər qanunvericilik aktlarını, Nazirliyin Kollegiya qərarlarını, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin (bundan sonra - nazir) əmr və sərəncamlarını (bundan sonra - təşkilati-sərəncamverici sənədlər) və bu Əsasnaməni rəhbər tutur.

1.3. Şöbə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Nazirliyin aparatının bölmələri, strukturuna daxil olan qurumları və strukturuna daxil olmayan tabeliyindəki digər qurumlar (bundan sonra – Nazirliyin strukturları), təsisçisi olduğu, səhmlərinin saxlanması və ya idarə olunması Nazirliyə həvalə edilmiş hüquqi şəxslər, eləcə də mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Şöbənin fəaliyyət istiqamətləri

2.1. Şöbə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.1.1. regionların sosial-iqtisadi inkişafının əsas istiqamətlərinin müəyyən edilməsini, bu istiqamətlərdə tədbirlərin işlənib hazırlanmasını həyata keçirir;

2.1.2. regionların inkişafına dair dövlət proqramlarının və tədbirlərin əlaqələndirilməsini həyata keçirir;

2.1.3. regionlara dair sosial-iqtisadi məlumatların icmallaşdırılmasını və təhlilini həyata keçirir;

2.1.4. regionlarda iqtisadi aktivliyin artırılması məqsədilə mexanizmlərin formalaşdırılması barədə təkliflər hazırlayır;

2.1.5. işğaldan azad edilmiş ərazilərin inkişafı və yenidən qurulması sahəsində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak edir;

2.1.6. işğaldan azad edilmiş ərazilərin inkişafı üzrə konsepsiyaların, dövlət proqramlarının hazırlanmasını həyata keçirir;

2.1.7. işğaldan azad edilmiş ərazilərin bərpası, yenidən qurulması və dayanıqlı sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə infrastruktur, yaşayış, iqtisadi fəaliyyət və sosial xidmətlər üzrə tədbirlərin həyata keçirilməsi ilə bağlı təkliflər hazırlayır;

2.1.8. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Şöbənin vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq, şöbənin vəzifələri aşağıdakılardır:

3.1.1. aidiyyəti dövlət qurumları və Nazirliyin aidiyyəti struktur vahidləri ilə birlikdə regionların sosial-iqtisadi inkişafı sahəsində, o cümlədən işğaldan azad edilmiş ərazilərin inkişafı və yenidən qurulması sahəsində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. ölkənin sosial-iqtisadi vəziyyətinin təhlili əsasında regionların inkişafına dövlət dəstəyi mexanizmlərinə dair təkliflər hazırlamaq;

3.1.3. regionların sosial-iqtisadi inkişaf dinamikasını təhlil etmək, perspektiv istiqamətlərin müəyyənləşdirilməsi, regionların qısamüddətli, ortamüddətli və uzunmüddətli kompleks inkişaf konsepsiyasının layihələrinin hazırlanması və həyata keçirilməsi ilə bağlı təkliflər hazırlamaq;

3.1.4. Nazirliyin strukturları tərəfindən regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçiriləcək tədbirlərin icrasını səlahiyyətləri daxilində təşkil etmək və əlaqələndirmək, digər dövlət orqanları tərəfindən aidiyyəti tədbirlərin həyata keçirilməsi ilə bağlı təkliflər hazırlamaq;

3.1.5. fəaliyyət istiqamətləri üzrə qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin layihələrini hazırlamaq, Nazirliyin strukturları və digər dövlət orqanları tərəfindən hazırlanmış belə layihələrə rəy vermək;

3.1.6. regionların sosial-iqtisadi inkişafı istiqamətində, o cümlədən işğaldan azad edilmiş ərazilərin inkişafı və yenidən qurulması sahəsində müxtəlif dövlət proqramlarının, konsepsiyalarının və s. layihələrini hazırlamaq və bu prosesdə aidiyyəti dövlət orqanlarının iştirakını təmin etmək, digər

dövlət orqanları tərəfindən hazırlanmış belə layihələrə dair fəaliyyət istiqamətləri üzrə rəy vermək;

3.1.7. regionların sosial-iqtisadi vəziyyəti haqqında hesabatlar hazırlamaq;

3.1.8. səlahiyyətləri daxilində Nazirliyin strukturları tərəfindən regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçiriləcək tədbirlərin icrasını təşkil etmək, əlaqələndirmək, digər dövlət orqanları tərəfindən aidiyyəti tədbirlərin yerinə yetirilməsi ilə bağlı təkliflər hazırlamaq;

3.1.9. regionların sosial-iqtisadi inkişafı ilə bağlı Nazirlik tərəfindən keçirilən tədbirlərin təşkil edilməsində iştirak etmək, regionların davamlı inkişafı, investisiyaların cəlb edilməsi, məşğulluğun artırılması, sahibkarlığın inkişafı və sosial-iqtisadi sahədə həyata keçirilən digər tədbirlərdə fəaliyyət istiqamətləri üzrə iştirak etmək;

3.1.10. regionlarda sosial-iqtisadi inkişafın təmin edilməsi sahəsində mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları, beynəlxalq və yerli qeyri-hökumət təşkilatlarının əməkdaşlığının yaradılmasına və inkişafına yardım göstərmək;

3.1.11. regional inkişaf sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlığı həyata keçirmək və səlahiyyətləri daxilində bu sahədəki fəaliyyəti əlaqələndirmək;

3.1.12. regionların inkişafı problemlərinə dair beynəlxalq təcrübəni öyrənərək bu sahədə şöbənin fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər vermək;

3.1.13. regionların inkişafına dair investisiya layihələrinin hazırlanması prosesində iştirak etmək, bununla bağlı rəy və təkliflər vermək;

3.1.14. regionların sosial-iqtisadi inkişafına dair Nazirliyin regional bölmələri tərəfindən təhlillərin aparılmasını, arayış və hesabatların hazırlanmasını əlaqələndirmək və icmallaşdırılmasını həyata keçirmək;

3.1.15. regionların ixrac potensialının inkişaf etdirilməsi üçün əlverişli şəraitin yaradılması üzrə təkliflərin hazırlanmasında iştirak etmək;

3.1.16. Nazirliyin regional bölmələrinin işinə cari nəzarət etmək və onların işini əlaqələndirmək;

3.1.17. Nazirliyin regional bölmələrinin işçi heyətinin formalaşdırılması, fəaliyyət mexanizminin təkmilləşdirilməsi, potensialının gücləndirilməsi ilə bağlı təqdimatlar və təkliflər vermək;

3.1.18. regionların inkişafı ilə bağlı konsepsiyalar, strategiyalar, dövlət proqramları və fəaliyyət planlarında Nazirliyə həvalə edilmiş tədbirlərin icrasını təşkil etmək, əlaqələndirmək, icra vəziyyətinə dair hesabatlar hazırlamaq;

3.1.19. regionların dayanıqlı sosial-iqtisadi inkişafı üzrə tematik araşdırmalar aparmaq və icmal hesabatlar hazırlamaq;

3.1.20. regionların sosial-iqtisadi göstəricilərinə dair statistik bazanın yaradılması və onun müntəzəm şəkildə yenilənməsini təmin etmək;

3.1.21. regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar dövlət orqanları və Nazirliyin strukturları ilə qarşılıqlı fəaliyyət sistemini formalaşdırmaq və bu sahədə əlaqələndirilmiş fəaliyyəti təşkil etmək;

3.1.22. işğaldan azad edilmiş ərazilərin inkişafına dair tədbir və proqramların icrasına nəzarət etmək;

3.1.23. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə və təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

3.1.24. səlahiyyətləri çərçivəsində Nazirliyin inkişaf konsepsiyasının (strateji planının) həyata keçirilməsində iştirak etmək;

3.1.25. Nazirliyin strukturları ilə regional bölmələri arasında əlaqələndirmə işini təşkil etmək;

3.1.26. şöbənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları dövrlər üzrə hazırlamaq;

3.1.27. şöbənin əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

3.1.28. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Şöbənin hüquqları

4.1. Şöbənin vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

4.1.1. fəaliyyət istiqamətləri üzrə Nazirliyin strukturları tərəfindən hazırlanmış qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin layihələrinə dair təkliflər vermək;

4.1.2. İşğaldan azad edilmiş ərazilərin inkişafı üzrə konsepsiyaların, dövlət proqramlarının hazırlanmasında iştirak etmək, onlara dair rəy və təkliflər vermək;

4.1.3. Nazirliyin fəaliyyət istiqamətləri üzrə iqtisadi-sosial sahələri tənzimləyən qanunvericilik aktlarının, inkişaf planlarının, konsepsiyaların və proqramların layihələrinin hazırlanması prosesi zərurət yarandıqda müstəqil ekspertlərin, mütəxəssislərin, məsləhətçi şirkətlərin, elmi təşkilatların cəlb edilməsi ilə bağlı Nazirliyin rəhbərliyi qarşısında məsələ qaldırmaq;

4.1.4. fəaliyyət istiqamətlərinə aid məsələlərə dair rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik-icmal materiallar hazırlamaq, müvafiq sahə üzrə tədqiqatlar aparmaq, təkliflər vermək;

4.1.5. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar səlahiyyətləri daxilində Nazirliyin strukturlarına müvafiq sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları (sənədləri) almaq;

4.1.6. fəaliyyət istiqamətlərinə aid edilmiş məsələlərlə bağlı səlahiyyətləri daxilində dövlət orqanları, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər qarşısında Nazirliyi təmsil etmək, hüquq və mənafelərini müdafiə etmək;

4.1.7. Nazirlikdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə Nazirliyi təmsil etmək, onların işində iştirak etmək;

4.1.8. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə dövlət və yerli özünüidarəetmə orqanlarından, fiziki və hüquqi şəxslərdən zəruri məlumatların əldə olunması ilə bağlı sorğu göndərmək;

4.1.9. öz səlahiyyətləri daxilində Nazirliyin strukturları, aidiyyəti dövlət orqanları, bələdiyyələr, beynəlxalq təşkilatlar, hüquqi və fiziki şəxslərlə qarşılıqlı fəaliyyət göstərmək;

4.1.10. fəaliyyət istiqamətlərinə uyğun beynəlxalq təcrübəni öyrənmək və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər vermək;

4.1.11. müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

4.1.12. regionların davamlı inkişafı, investisiyaların cəlb edilməsi, məşğulluğun artırılması və s. ilə bağlı təkliflər hazırlamaq;

4.1.13. Nazirliyin regional bölmələrində təşkilati-idarəetmənin təkmilləşdirilməsi, onların inzibati-funksional fəaliyyətinin yaxşılaşdırılması barədə təkliflər vermək;

4.1.14. regionların sosial-iqtisadi inkişafı ilə bağlı biznes-forumların, yerli və xarici şirkətlərin sərgilərinin və s. tədbirlərin keçirilməsinə dair təkliflər vermək;

4.1.15. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Şöbənin fəaliyyətinin təşkili

5.1. Şöbənin strukturu və əməkdaşlarının sayı nazir tərəfindən müəyyən və təsdiq edilir. Şöbə bilavasitə nazirə tabedir və onun qarşısında hesabat verir. Nazir tərəfindən səlahiyyət verilmiş şəxs istisna olmaqla heç kəs şöbənin fəaliyyətinə müdaxilə edə bilməz.

Şöbənin strukturuna Regional inkişaf siyasəti sektoru, Ərazilərin bərpası və inkişafı sektoru, Layihələrin dəstəklənməsi sektoru, və İcmal və əlaqələndirmə sektoru daxildir.

5.2. Şöbənin fəaliyyətinə nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (şöbə müdiri) rəhbərlik edir. Şöbə müdiri şöbəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. Şöbə müdirinin nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavin(lər)i vardır. Şöbə müdirinin müavin(lər)i şöbə müdiri tərəfindən on(lar)a həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır(lar).

Şöbə müdiri olmadıqda onun səlahiyyətlərini müəyyən edilmiş qaydada şöbə müdirinin müavini (müavinlərindən biri) və ya nazir tərəfindən təyin olunmuş digər şəxs həyata keçirir.

5.4. Şöbənin digər əməkdaşları nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.5. Şöbə müdiri:

5.5.1. şöbənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. tabeliyində olan sektorlar və əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət etmələrinə nəzarət edir;

5.5.3. şöbəyə həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

5.5.4. şöbə üzrə Nazirliyin Kollegiyasında müzakirə olunmalı məsələləri müəyyən edir və bu barədə təkliflərini Nazirliyin rəhbərliyinə təqdim edir, şöbə tərəfindən bu Əsasnamənin 1.2-ci bəndində göstərilən qanunvericilik aktlarının və təşkilati-sərəncamverici sənədlərin vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

5.5.5. şöbənin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Nazirliyin rəhbərliyinə təqdimatlar verir;

5.5.6. şöbənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Nazirliyin digər strukturlarından zəruri məlumat və sənədləri alır;

5.5.7. daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.5.8. şöbədə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;

5.5.9. şöbəni təmsil edir.

5.6. şöbənin əməkdaşları bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

## 6. Şöbənin strukturuna daxil olan sektorların vəzifələri

6.1. Regional inkişaf siyasəti sektorunun vəzifələri aşağıdakılardır:

6.1.1. aidiyyəti dövlət qurumları və Nazirliyin aidiyyəti struktur vahidləri ilə birlikdə regionların sosial-iqtisadi inkişafı sahəsində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

6.1.2. regionların sosial-iqtisadi inkişaf dinamikasını təhlil etmək, perspektiv istiqamətlərin müəyyənləşdirilməsi, regionların qısamüddətli, ortamüddətli və uzunmüddətli kompleks inkişaf konsepsiyasının layihələrinin hazırlanması və həyata keçirilməsi üçün tədbirlər görmək;

6.1.3. regionların sosial-iqtisadi inkişafı istiqamətində müxtəlif dövlət proqramlarının, konsepsiyalarının və s. layihələrini hazırlamaq və bu prosesdə aidiyyəti dövlət orqanlarının iştirakını təmin etmək üçün şöbənin rəhbərliyinə təkliflər vermək, digər dövlət orqanları tərəfindən hazırlanmış iqtisadi inkişaf dövlət proqramlarının, konsepsiyalarının layihələrinə dair fəaliyyət istiqamətləri üzrə rəylər hazırlamaq;

6.1.4. fəaliyyət istiqamətləri üzrə qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin layihələrini hazırlamaq, Nazirliyin strukturları və digər dövlət orqanları tərəfindən hazırlanmış belə layihələrə dair rəy vermək;

6.1.5. regionların inkişafına investisiyaların cəlb edilməsi sahəsində tədbirlərin hazırlanmasında və onların həyata keçirilməsində iştirak etmək;

6.1.6. səlahiyyətləri daxilində Nazirliyin strukturları tərəfindən regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçiriləcək tədbirlərin icrasını təşkil etmək, əlaqələndirmək, digər dövlət orqanları tərəfindən aidiyyəti tədbirlərin yerinə yetirilməsi ilə bağlı təkliflər hazırlamaq;

6.1.7. regionlarda sosial-iqtisadi inkişafın təmin edilməsi sahəsində mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları, beynəlxalq və yerli qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın yaradılmasına və inkişafına dəstək göstərmək;

6.1.8. regionların sosial-iqtisadi inkişafı ilə bağlı Nazirlik tərəfindən keçirilən tədbirlərin təşkilində iştirak etmək, regionların davamlı inkişafı, investisiyaların cəlb edilməsi, məşğulluğun artırılması, sahibkarlığın inkişafı və sosial-iqtisadi sahədə həyata keçirilən digər tədbirlərdə fəaliyyət istiqamətləri üzrə iştirak etmək;

6.1.9. regionların ixrac potensialının inkişaf etdirilməsi üçün əlverişli şəraitin yaradılması üzrə təkliflərin hazırlanmasında iştirak etmək;

6.1.10. regionların sosial-iqtisadi vəziyyətinin təhlili əsasında bölgələrin inkişafına dövlət dəstəyi mexanizmləri barədə təkliflər hazırlamaq və bununla bağlı aidiyyəti tədbirlər görmək;

6.1.11. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə dair şöbə müdirinə təkliflər vermək;

6.1.12. şöbənin fəaliyyət istiqamətləri üzrə (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə və təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

6.1.13. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.2. Ərazilərin bərpası və inkişafı sektorunun vəzifələri aşağıdakılardır:

6.2.1. işğaldan azad edilmiş ərazilərin inkişafı və yenidən qurulması sahəsində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

6.2.2. işğaldan azad edilmiş ərazilərin inkişafı üzrə konsepsiyaların, dövlət proqramlarının hazırlanmasını həyata keçirmək;

6.2.3. işğaldan azad edilmiş ərazilər üzrə təsdiq olunmuş konsepsiyalarının və dövlət proqramlarının icrası ilə bağlı fəaliyyət istiqamətləri üzrə təkliflər hazırlamaq, bununla bağlı aidiyyəti tədbirlər görmək;

6.2.4. işğaldan azad edilmiş ərazilərin bərpası, yenidən qurulması və dayanıqlı sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə infrastruktur, yaşayış, iqtisadi fəaliyyət və sosial xidmətlər üzrə tədbirlərin həyata keçirilməsi ilə bağlı təkliflərin hazırlanmasını həyata keçirmək;

6.2.5. işğaldan azad edilmiş ərazilərin bərpası, yenidən qurulması ilə bağlı Nazirliyin strukturları və digər dövlət orqanları tərəfindən bu sahədə hazırlanmış qanunvericilik aktlarının layihələrinə rəy vermək;

6.2.6. işğaldan azad edilmiş ərazilərin bərpası, yenidən qurulması və dayanıqlı sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə təhlillər aparmaq və buna müvafiq olaraq hesabat və təkliflər hazırlamaq;

6.2.7. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə və təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

6.2.8. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.3. Layihələrin dəstəklənməsi sektorunun vəzifələri aşağıdakılardır:

6.3.1. regionlarda iqtisadi aktivliyin artırılması, özəl sektorun təşəbbüslərinin təşviqi məqsədilə mexanizmlərin formalaşdırılmasına dair təkliflər hazırlamaq, investisiya təşəbbüslərinin dəstəklənməsi istiqamətində tədbirlərin işlənib hazırlanmasında iştirak etmək;

6.3.2. layihələrin icrası ilə bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət qurumları və digər tərəfdaşlar arasında əlaqələndirməni təmin etmək, habelə icra prosesində yaranan institusional, hüquqi və təşkilati məsələlərin operativ həlli və icranın sürətləndirilməsi məqsədilə müvafiq dəstək göstərmək;

6.3.3. layihələrin maliyyələşdirilməsi məqsədilə dövlət büdcəsi vəsaitlərinin, xarici və beynəlxalq maliyyə institutlarının kreditlərinin, qrantların və digər maliyyə mənbələrinin cəlb edilməsi üzrə təkliflər hazırlamaq;

6.3.4. layihələrin icrasının gedişinə, əldə olunan nəticələrə və sosial-iqtisadi təsirə dair təhlillər aparmaq, bu əsasda arayışlar və təkliflər hazırlamaq;

6.3.5. regionların inkişafına təsir göstərəcək sahəvi investisiya layihələrinin hazırlanmasında iştirak etmək, bununla bağlı rəy və təkliflər hazırlamaq;

6.3.6. regionlarda istehsal və xidmət sahələrinin yaradılması, fəaliyyətinin dəstəklənməsi ilə bağlı təkliflər hazırlamaq;

6.3.7. fəaliyyət istiqamətləri üzrə qanunvericilik aktlarını, təşkilati-sərəncamverici sənədlərin layihələrini hazırlamaq, Nazirliyin strukturları və digər dövlət orqanları tərəfindən hazırlanmış belə layihələrə dair rəy vermək;

6.3.8. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.4. İcmal və əlaqələndirmə sektorunun vəzifələri aşağıdakılardır:

6.4.1. regionların inkişafı ilə bağlı konsepsiyalar, strategiyalar, dövlət proqramları və fəaliyyət planlarında Nazirliyə həvalə edilmiş tədbirlərin icrasını təşkil etmək, əlaqələndirmək icra vəziyyətinə dair hesabatlar hazırlamaq;

6.4.2. regionların inkişafı ilə bağlı konsepsiyaların, strategiyaların, dövlət proqramlarının Nazirlik üzrə icra vəziyyətini izləmək, tələblərə uyğun icrası ilə bağlı təkliflər hazırlamaq;

6.4.3. regionların dayanıqlı sosial-iqtisadi inkişafı üzrə tematik araşdırmalar aparmaq və icmal hesabatlar hazırlamaq;

6.4.4. regionların sosial-iqtisadi göstəricilərinə dair statistik bazanın yaradılması və onun müntəzəm şəkildə yenilənməsini təmin etmək;

6.4.5. regionların sosial-iqtisadi inkişafına dair Nazirliyin regional bölmələri tərəfindən təhlillərin aparılmasını, arayış və hesabatların hazırlanmasını əlaqələndirmək və icmallaşdırılmasını həyata keçirmək;

6.4.6. Nazirliyin regional bölmələrinin işinə cari nəzarət etmək və onların işini əlaqələndirmək;

6.4.7. Nazirliyin regional bölmələrinin işçi heyətinin formalaşdırılması, fəaliyyət mexanizminin təkmilləşdirilməsi, potensialının gücləndirilməsi ilə bağlı təqdimatlar və təkliflər vermək;

6.4.8. Nazirlikdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə Nazirliyi təmsil etmək, onların işində iştirak etmək;

6.4.9. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə dair şöbə müdirinə təkliflər vermək;

6.4.10. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.